*Hörmətli xanımlar və cənablar!*

*Ölkənin davamlı inkişafı və müasirləşməsi həmin ölkədə mövcud olan insan kapitalının intellektual potensialından asılıdır. Bu gün Azərbaycan dövlətinin, möhtərəm Prezident cənab İlham Əliyevin diqqəti ona yönəlmişdir ki, güclü bilik iqtisadiyyatı formalaşsın, dünyada mövcud olan qabaqcıl texnologiyalar Azərbaycana gətirilsin, Azərbaycan özü də belə texnologiyaların yaradıcısı olsun.*

*İnsan kapitalı cəmiyyətin tükənməz sərvətidir, enerjisidir və bu enerji düzgün məcraya yönəlməlidir. İnsan kapitalı inkişaf etməsə, heç bir texnologiyanı tətbiq etmək mümkün olmayacaq. Ölkəmizdə keçirilən 4-cü "Yüksəliş" müsabiqəsi insan kapitalının inkişaf etdirilməsinə təkan verən yarışmadır.*

*Təbii ki, inkişafdan danışanda biz məhz davamlı inkişafı nəzərdə tuturuq. Buna nail olmaq üçün cəmiyyətimizdə həm müvafiq ənənələr olmalı, həm də mütləq şəkildə innovasiyalar tətbiq olunmalıdır. Bu iki anlayış – ənənə və innovasiya vəhdət təşkil etməlidir. Eyni zamanda, nəzərə almalıyıq ki, hər bir innovasiyanın əsasında ənənə durur. Məhz bu amilə görə, innovasiyalar üzərində qurulmuş cəmiyyət kifayət qədər ətalətli olur və müxtəlif xarakterli (sosial, iqlim və s.) böhran vəziyyətləri yarananda belə cəmiyyət öz sabitliyini qoruyub saxlayır. Eyni zamanda, bəzi ənənələrin həddindən artıq güclü olması cəmiyyətdə innovasiyaların sürətlə tətbiqinə maneə törədir. Amma bir çox hallarda cəmiyyət üçün zəruri olan və düzgün tətbiq edilən innovasiyalar yeni proqressiv ənənələrin yaranmasına səbəb olur.*

*Hamımıza məlumdur ki, XXI əsrdə biliklər yüksək sürətlə köhnəlir. Buna görə də, təhsil sistemi müasir cəmiyyətin tələblərinə cavab vermək üçün qabaqlayıcı olmalıdır. Əgər əvvəllər ali təhsildə əldə olunmuş nəzəri biliklər 20-25 ilə yetirdisə, bu gün hər bir ali təhsilli peşənin səmərəlilik müddəti 5-7 il, bəzi yüksək texniki sahələrdə isə 2-3 il təşkil edir. Beləliklə, innovasiya dövrü ali təhsilli mütəxəssisin hazırlanması müddətindən qısa olubdur.*

*Məlumdur ki, elm sahəsində 20-ci əsrin əvvəli və ortalarında əldə olunan hər hansı nailiyyət texnoloji alətə çevrilənə qədər 40-50 il vaxt tələb olunurdu. Məsələn, süni intellektlə bağlı elmi araşdırmalar İkinci Dünya müharibəsi bitəndən sonra başlanmışdır (təxminən 70 il əvvəl). Elmi araşdırmalar başlayanda işlər iki istiqamətdə aparılırdı: praqmatik və bionik. Praqmatik istiqamət nədir? Kompüterə bir alət kimi baxılırdı, insan tərəfindən qoyulan müxtəlif məsələlər kompüter tərəfindən mürrəkəb alqoritmlər əsasında həll olunurdu və bu alqoritmlər də insan tərəfindən yazılırdı. İri həcmli dataların emalı, müqayisəsi, axtarışların aparılması kimi rutin işlər insandan daha sürətli şəkildə kompüter tərəfindən icra edilirdi. Bu proqramların geniş şəkildə tətbiq edilməsi üçün 30-40 il vaxt lazım oldu. 70–80-ci illərdə məhz praqmatik yanaşma əsasında hazırlanmış proqram təminatları insan həyatının bir çox sahələrində, o cümlədən hərbi, kosmik uçuşların idarə olunması və bir çox digər sahələrdə istifadə olunurdu. O zaman bu proseslər elmi-texniki inqlaba təkan verdi.*

*İkinci – bionik istiqamət kompüter və ya müxtəlif qurğular vasitəsilə süni intellekt yaratmaq üçün insan beyninin fəaliyyətinin, onun psixoloji və fizioloji xüsusiyyətlərinin modelləşdirilməsi idi. Bu intellektin özünü öyrətmə və yaradıcılıq kimi insan xüsusiyyətlərinə malik olması nəzərdə tutulurdu. Hazırda biz özünü öyrətmə xüsusiyyətinə malik olan intellektin nümunəsini gürürük – bu çat "GPT"dir. Çat "GPT" XXI əsrdə hər bir savadlı insanın istifadə etdiyi bir alətdir. Demək olar ki, bu gələcəkdən XXI əsrin insanlarına göndərilmiş bir səfirdir. Hadisələrin bundan sonrakı inkişafı bizim özümüzdən asılıdır: ya biz süni intellektin sayəsində öz üzərimizdə çalışaraq daha da inkişaf edəcəyik, yaxud da süni intellekt tərəfindən idarə olunan, müstəqil və şüurlu şəkildə hər hansı bir fəaliyyət göstərməyi bacarmayan insanlara çevriləcəyik.*

*Beləliklə, bu gün insan kapitalından danışanda belə bir ritorik sual yaranır: XXI əsrdə həm gənclər, həm cəmiyyətin bütün üzvləri hansı keyfiyyətə, bacarığa malik olmalıdırlar? Bu sualın qısa cavabı belədir:*

*Şüurlu, müstəqil, yaradıcı öyrənmə bacarığı.*

*Bu həm fərdi uğuru, həm ictimai rifahı, həm də bütün cəmiyyətin inkişafını təmin etmək üçün zəruri şərtidir.*

*Əminliklə deyə bilərəm ki, "Yüksəliş" müsabiqəsində iştirak məhz bu keyfiyyətin üzə çıxmasına, həm də formalaşmasına şərait yaradır. Buna görə də, müsabiqədə iştirak etmək, bu mərhələyə qədər gəlib çatmaq sizin üçün artıq bir uğurdur, nailiyyətdir.*

*Mən bütün iştirakçılara müsabiqədə qələbə arzulayıram!*